# Azərbaycan Respublikasının Nazirlər Kabineti

# «Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi tərəfindən tikinti sahəsində dövlət nəzarətinin mərhələlərlə həyata keçirilməsi Qaydaları»nın təsdiq edilməsi barədə

# Qərar № 272

***Bakı şəhəri, 5 dekabr 2008-ci il***

«Azərbaycan Respublikasında tikinti sahəsində dövlət nəzarətinin gücləndirilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 30 avqust tarixli, 624 nömrəli Fərmanının 1-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. «Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi tərəfindən tikinti sahəsində dövlət nəzarətinin mərhələlərlə həyata keçirilməsi Qaydaları» təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Baş naziri***

***A. RASİ-ZADƏ***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (31 dekabr 2008-ci il, № 12 (138), maddə 1111) («VneshExpertService» LLC).***

***30 sentyabr 2009-cu il tarixli, 157 nömrəli; 16 iyul 2010-cu il tarixli, 136 nömrəli Qərarlara əsasən dəyişikliklərlə ( «VneshExpertService» LLC).***

---

*Azərbaycan Respublikası*
*Nazirlər Kabinetinin*
*2008-ci il 5 dekabr tarixli,*
*272 nömrəli qərarı ilə*
***təsdiq edilmişdir***

# Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi tərəfindən tikinti sahəsində dövlət nəzarətinin mərhələlərlə

## həyata keçirilməsi
## Qaydaları

### 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 aprel tarixli, 394 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi haqqında» Əsasnaməyə, Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 29 dekabr tarixli, 511 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi haqqında» Əsasnaməyə və «Azərbaycan Respublikasında tikinti sahəsində dövlət nəzarətinin gücləndirilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 30 avqust tarixli, 624 nömrəli Fərmanının 1-ci bəndinə uyğun olaraq hazırlanmışdır.

1.2. Bu Qaydalar Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin (bundan sonra — Nazirlik) Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi (bundan sonra — Agentlik) və digər struktur bölmələri tərəfindən tikinti, yenidənqurma, əsaslı təmir və bərpa işlərinin (bundan sonra — tikinti işləri) bütün mərhələlərində qanunvericiliklə müəyyən edilmiş səlahiyyətləri çərçivəsində dövlət nəzarətinin həyata keçirilməsi mexanizmini müəyyən edir.

1.3. Bu Qaydaların tələbləri tikinti fəaliyyətinin bütün iştirakçıları üçün məcburidir. Tikinti fəaliyyətinin hər bir mərhələsində mövcud qanunvericiliyi və tikinti norma və qaydalarını pozan fiziki və ya hüquqi şəxslərin məsuliyyətə cəlb olunması üçün Nazirlik Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada müvafiq tədbirlər həyata keçirir.

1.4. Bu Qaydalar III məsuliyyət səviyyəli bina və qurğuların tikinti işləri ilə bağlı məsələlərinin tənzimlənməsinə şamil olunmur.

### 2. Tikinti fəaliyyətində dövlət nəzarətinin məqsədi

2.1. Tikinti sahəsində dövlət nəzarətinin (bundan sonra — dövlət nəzarəti) əsas məqsədi tikinti fəaliyyətinin bütün mərhələlərində inşaat işləri həyata keçirilərkən həmin fəaliyyətin bütün iştirakçıları, o cümlədən mərkəzi və yerli icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları tərəfindən tikinti norma və qaydalarına, layihə sənədlərinə, normativ hüquqi aktların tələblərinə əməl olunmasının təmin edilməsinə, insanların həyatı, sağlamlığı va əmlakı üçün potensial təhlükə yarada biləcək tikinti işlərinin qarşısının vaxtında alınmasına yönəldilmiş müvafiq tədbirlərin həyata keçirilməsidir.

2.2. Tikinti fəaliyyətinin bütün iştirakçıları dövlət nəzarətini həyata keçirən şəxslərin tikinti obyektlərinə maneəsiz daxil olması və dövlət nəzarətinin həyata keçirilməsi üçün müvafiq şərait yaratmalıdırlar.

### 3. Dövlət nəzarətinin mərhələlər üzrə həyata keçirilməsi qaydası

Tikinti fəaliyyətinin hər bir mərhələsində dövlət nəzarəti Agentlik tərəfindən qanunvericiliklə müəyyən edilmiş səlahiyyətləri çərçivəsində aşağıda göstərilən qaydada həyata keçirilir:

**3.1. obyektin tikilməsinə icazə verilməsi mərhələsində:**

- yerli icra hakimiyyəti və ya özünüidarəetmə orqanı tərəfindən müvafiq qaydada Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidməti və Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Gigiyena və Epidemiologiya Mərkəzi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə əvvəlcədən razılaşdırılmış və obyektin tikilməsinə icazə verilməsi haqqında qəbul edilmiş sərəncamın və ya qərarın bir nüsxəsi obyektə aid memarlıq-planlaşdırma göstərişləri və mühəndis kommunikasiyalarına qoşulmanın texniki şərtləri əlavə olunmaqla Agentliyə göndərilir;

**3.2. mühəndis-axtarış işlərinin həyata keçirilməsi mərhələsində:**

3.2.1. Agentliyin Mühəndis-Axtarış Mərkəzi (bundan sonra Mərkəz) vahid texniki tənzimlənmə vasitəsilə fiziki və hüquqi şəxslər tərəfindən aparılan mühəndis-geodezik, topoqrafiya-planaalma, mühəndis-geoloji və mühəndis-hidrogeoloji axtarış, xəritəalma və geofiziki işlərinin (bundan sonra — mühəndis-axtarış işləri) standart, norma və qaydalara uyğun həyata keçirilməsinə nəzarət edir;

3.2.2. mühəndis-axtarış işlərini həyata keçirən bütün subyektlər tərəfindən ilk növbədə aparılacaq mühəndis-axtarış işləri haqqında tərtib edilmiş proqram layihəsi razılaşdırılması və sonradan həmin işlərin nəticələrinə rəy verilməsi üçün Agentliyə təqdim olunur;

3.2.3. xüsusi razılıq (lisenziya) alınmadan fiziki və ya hüquqi şəxslər tərəfindən həyata keçirilən mühəndis-axtarış işlərinin nəticələri qəbul edilmir və təqdim olunan sənədlər heç bir rəy tərtib edilmədən geri qaytarılır;

3.2.4. Mərkəz fiziki və ya hüquqi şəxslər tərəfindən aparılan mühəndis-axtarış işlərinin tərkibini və nəticələrini təhlil edir, zəruri hallarda seçmə üsulu ilə yerində baxış keçirir və 7 iş günündən gec olmayaraq, onların tikintinin təhlükəsizliyi ilə bağlı müvafiq norma və qaydalara uyğun olub-olmaması barədə rəy verir. Müstəsna hallarda, qeyd olunan obyektlər haqqında rəyin verilməsi müddəti 15 iş günündən çox olmaması şərtilə uzadıla bilər;

3.2.5. Mərkəz, həmçinin mühəndis-axtarış işlərinin aparılması üçün Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, dövlət standartlarının tələblərinə uyğunluğu təsdiq edilmiş və dövlət qeydiyyatından keçmiş ölçü vasitələrinin tətbiq edilməsini yoxlayır;

**3.3. layihələndirmə işlərinin aparılması mərhələsində:**

3.3.1. obyektin layihələndirilməsi başa çatdıqdan sonra, layihə sənədləri qanunvericiliklə müəyyən edilmiş hallarda dövlət ekspertizasının aparılması üçün Agentliyin Təsisatdankənar Dövlət Ekspertiza Baş İdarəsinə (bundan sonra — Dövlət Ekspertiza İdarəsi) təqdim edilməlidir;

3.3.2. Dövlət Ekspertiza İdarəsi layihəqabağı və tikinti layihə sənədlərini qiymətləndirərək, sənədləri təqdim edən fiziki və ya hüquqi şəxslər tərəfindən qanunvericilik, tikinti norma və qaydalarının tələblərinə riayət edilməsinə nəzarəti təmin edir və qanunvericiliklə müəyyən edilmiş müddətdə müvafiq rəy verir;

3.3.3. layihələndirmə işlərinə nəzarət obyektin layihələndirilməsində qüvvədə olan normativ sənədlərin tələblərinə riayət edilməsi, sifarişçinin, müvafiq icra hakimiyyəti orqanlarının, bələdiyyənin və digər qurumların öz səlahiyyətləri çərçivəsində verilən tələb və göstərişlərin yerinə yetirməsi və obyektin müvafiq kommunikasiya və şəbəkələrə qoşulması şərtlərinə əməl edilməsi ilə müəyyən edilir;

3.3.4. layihə sənədlərində tikinti işlərinin aparılması üçün tələb olunan texniki məsələlər və obyektin bütövlüklə, yaxud növbələrlə istismara qəbul edilməsi məsələsi də həll edilməlidir;

3.3.5. obyektin növbələrlə istismara qəbul edilməsi nəzərdə tutulduğu halda, obyektin ümumi layihəsi hər bir tikinti mərhələsi üçün müvafiq hissələrə bölünməli və bu hissələrdə hər bir tikinti növbəsinin sərbəst istismara verilməsini təmin edəcək layihə həlləri qəbul edilməlidir;

3.3.6. Dövlət Ekspertiza İdarəsinin rəyində göstərilən tələb və iradlar sifarişçi və layihəçi tərəfindən icra olunmalı və yenidən tərtib olunmuş layihələr təkrarən dövlət ekspertizasından keçirilməsi üçün təqdim olunmalıdır;

3.3.7. yalnız Dövlət Ekspertiza İdarəsinin müsbət rəyi alındıqdan və layihələr sifarişçi tərəfindən təsdiq olunduqdan sonra tikintinin başlanmasına və aparılmasına icazə verilir;

**3.4. dövlət büdcəsi vəsaiti hesabına tikinti işlərinin aparılması üzrə smeta dəyərinin müəyyənləşdirilməsində:**

3.4.1. tikintinin bazis qiymətləri səviyyəsindəki dəyəri qüvvədə olan smeta norma və qiymətlərindən istifadə etməklə müəyyən edilir;

3.4.2. tikintinin bazis smeta sənədlərinin düzgünlüyü barədə Dövlət Ekspertiza İdarəsinin müsbət rəyi alındıqdan sonra tikintilərin cari qiymətlər səviyyəsində müqavilə dəyərinin düzgünlüyü Agentliyin Tikintidə Qiymətqoyma Mərkəzi tərəfindən müəyyən edilir.

3.4.3. tikintilərin cari qiymətlər səviyyəsində müqavilə qiymətlərinin müəyyən edilməsi və müvafiq rəy verilməsi üçün Agentliyin Tikintidə Qiymətqoyma Mərkəzinə aşağıdakı sənədlər təqdim edilməlidir:

- tikintinin bazis smeta sənədlərinin düzgünlüyü barədə dövlət ekspertizası orqanlarının müsbət rəyi;
- müvafiq metodiki göstərişlər əsasında tərtib edilmiş hesabatlar;
- inşaat materiallarının sifarişçi və podratçı tikinti təşkilatları arasında razılaşdırılmış faktiki dəyərləri (ƏDV-siz) haqqında məlumatlar;
- podratçı tikinti təşkilatı üzrə ötən il üçün əsas fəhlələrin bir nəfərinə düşən orta aylıq əməkhaqqı barədə arayış.

3.4.4. 3.4.3-cü bənddə qeyd olunan sənədlər əsasında obyektin cari qiymətlər səviyyəsində investor smeta dəyəri qüvvədə olan norma və qaydaların tələblərinə uyğun olaraq yoxlanılır. Hesabatlar müvafiq normativ hüquqi aktlara əsaslanmalı və müvafiq metodiki göstərişlərin tələblərinə cavab verməlidir;

3.4.5. təqdim edilən sənədlərdə səhv və uyğunsuzluq aşkar edildikdə, həmin sənədlər düzəlişlər edilməsi üçün geri qaytarılır;

3.4.6. səhv və uyğunsuzluqlar aradan qaldırıldıqdan sonra tikinti işlərinin müqavilə qiymətlərinin düzgün formalaşması haqqında rəy verilməsi üçün sənədlər yenidən Agentliyin Tikintidə Qiymətqoyma Mərkəzinə təqdim edilir;

**3.5. tikinti-quraşdırma işlərinin aparılması sahəsində:**

3.5.1. respublika ərazisində I və II məsuliyyət səviyyəli bina və qurğularda aparılan tikinti işlərinə dövlət nəzarəti Agentliyin Baş Dövlət Tikinti Müfəttişliyi (bundan sonra — Dövlət Müfəttişliyi) tərəfindən həyata keçirilir. Digər bina və qurğularda yerli icra hakimiyyəti və bələdiyyə orqanlarının memarlıq-tikinti nəzarət xidmətləri öz işlərini müvafiq qanunvericiliyə və normativ-texniki sənədlərə uyğun olaraq təşkil edir;

- respublika ərazisində tikinti obyektlərinin inşasına nəzarətin aparılması, bu sahədə yol verilmiş hüquqpozmalar və onların qarşısını almaq üçün görülmüş tədbirlər haqqında məlumatların ümumiləşdirilməsi məqsədi ilə yerli icra hakimiyyəti və bələdiyyə orqanlarının memarlıq-tikinti nəzarət xidmətləri Agentliyin səlahiyyətlərinə aid olan məsələlər barədə məlumatları Agentliyə göndərməlidirlər;
- Agentlik müvafiq tikinti obyektlərinin inşası zamanı tikintidə təhlükəsizliyin təmin olunması ilə bağlı müvafiq norma və qaydalara yerli icra hakimiyyəti və bələdiyyə orqanlarının memarlıq-tikinti nəzarət xidmətləri tərəfindən əməl olunmasına öz səlahiyyətləri daxilində nəzarət edir, yerlərdə onların bu sahəyə dair fəaliyyətini mütəmadi olaraq araşdırır və nəticəsini təhlil edir;

3.5.2. tikinti obyektlərində tikinti işlərinin keyfiyyətinə, tikinti norma və qaydalarına əməl olunmasına dövlət nəzarətinin həyata keçirilməsi üçün Dövlət Müfəttişliyinin vəzifələri aşağıdakılardan ibarətdir:

- obyektin tikintisinə başlanılmazdan əvvəl tikinti işlərinin aparılması nəzərdə tutulan sahənin hasarlanmasına, onun sanitar, yanğın, ekoloji və radiasiya təhlükəsizliyinə, qonşu mühəndis və nəqliyyat kommunikasiyalarının və tikililərin təhlükəsizliyinin təmin edilməsinə dair görülən işlərin sənədləşməsinin aparılmasına nəzarət etmək;
- obyektin xaricdən görünən hissəsində (girişində, magistrallara səmtlənən hasarlarında və s.) onun əsas göstəricilərini, o cümlədən, adını, təyinatını, tikintinin müddətini, sifarişçi, layihəçi və podratçının adını, ünvanını və telefonlarını əks etdirən məlumat lövhəsinin olmasına nəzarət etmək;
- sifarişçilərdən və podratçılardan fəaliyyəti ilə bağlı müvafiq sənədləri, o cümlədən tikinti işlərini həyata keçirən məsul şəxslərin (texniki nəzarətçilər, iş icraçıları, sahə rəisləri və s.) ixtisasını təsdiq edən sənədləri tələb etmək;
- tikinti fəaliyyətinin iştirakçıları tərəfindən normativ-texniki sənədlərin və normativ hüquqi aktların, tikinti norma və qaydalarının tələblərinə razılaşdırılmış və təsdiq edilmiş memarlıq və tikinti layihələrinə əməl edilməsinə, habelə tikintidə istifadə olunan material, məmulat və konstruksiyaların müvafiq normativ sənədlərin tələblərinə uyğunluğunu təsdiq edən sertifikatların olmasına nəzarət etmək;
- tikinti fəaliyyətinin iştirakçıları tərəfindən tikintidə təhlükəsizlik qaydalarına nəzarətin, tikintidə layihəçi tərəfindən müəllif nəzarətinin, sifarişçi tərəfindən texniki nəzarətin və podratçı tərəfindən daxili əməliyyat nəzarətinin aparılmasına nəzarət etmək;
- tikintidə sifarişçi və podratçı arasında müqavilələrin bağlanmasına nəzarət etmək;

- tikintidə istifadə olunan tikinti material və konstruksiyalarının keyfiyyətinin yoxlanılması üçün akkreditasiya olunmuş sınaq laboratoriyaları ilə müqavilələrin olmasına nəzarət etmək;
- tikinti obyektlərini istismara qəbul edən dövlət qəbul komissiyalarının işində iştirak etmək;

3.5.3. tikinti obyektlərində tikinti işlərinin keyfiyyətinə, tikinti forma və qaydalarına əməl olunmasına dövlət nəzarətinin həyata keçirilməsi üçün Dövlət Müfəttişliyi aşağıdakı hüquqlara malikdir:

- təyinatından, mülkiyyət formasından və maliyyələşdirmə mənbələrindən asılı olmayaraq, tikinti obyektlərinə (xüsusi rejimli obyektlərə müvafiq qaydada razılıq əldə etdikdən sonra) maneəsiz daxil olmaq;
- sifarişçilərdən, podratçılardan və layihə sənədlərinin tərtibatçılarından səlahiyyətlərin həyata keçirilməsi üçün zəruri olan layihə, texnoloji və icra sənədlərini tələb etmək;
- sifarişçinin hesabına seçmə üsulu ilə nümunələr götürmək, bina, qurğu və konstruksiyaları, ayrı-ayrı qovşaq və elementləri müayinə etmək, qrunt, material və mühəndis sistemlərinin əlavə sınaqlarını keçirmək, çəkilişlərin və ölçmələrin aparılması, aparılmış tikintinin dayanıqlığı şübhə doğurduğu halda üstü örtülən konstruksiyaların üstünün açılması barədə sifarişçi, podratçı və layihə sənədlərinin tərtibatçılarına icrası məcburi olan yazılı tapşırıqlar vermək;
- sifarişçilərdən üstüörtülü işlərin aktlaşdırılması və laboratoriya sınaqlarının nəticələri üzrə aktları tələb etmək;
- tikinti obyektlərində tikinti norma və qaydalarının və normativ hüquqi aktların tələblərinin pozulması müəyyən edildiyi hallarda həmin obyektlərdə tikinti işlərinin dayandırılması, habelə qanunvericiliklə müəyyən edilmiş hallarda lisenziya fəaliyyətinin dayandırılması, yaxud ləğv edilməsi haqqında məsələ qaldırmaq.

3.5.4. hər bir tikinti obyektində tikintiyə aid normativ hüquqi və texniki sənədləşmənin yerinə yetirilməsinə və görülən işlərə nəzarət fərdi qaydada Tikintidə dövlət nəzarəti jurnalı (bundan sonra — nəzarət jurnalı) (1 nömrəli əlavə) vasitəsilə aparılır;

3.5.5. nəzarət jurnalında qazıntı işlərindən başlayaraq obyektin tikintisinin ayrı-ayrı mərhələlərinin texnoloji proseslərə bölünməklə ardıcıllığı göstərilir, Dövlət Müfəttişliyinin rəhbərliyi tərəfindən bu ardıcıllıq təsdiq olunur və birinci mərhələnin başlanmasına icazə verilir;

3.5.6. tikintinin hər bir növbəti mərhələlər üzrə yerinə yetirilmiş inşaat işlərinin tikinti norma və qaydalarına, layihəyə uyğunluğu barədə Dövlət Müfəttişliyinin əməkdaşı (bundan sonra — tikinti müfəttişi) tərəfindən nəzarət jurnalında müvafiq qeydlər aparılır və həmin qeydlər Dövlət Müfəttişliyinin rəhbərliyi tərəfindən yoxlanıldıqdan sonra növbəti mərhələnin başlanmasına icazə verilir;

3.5.7. hər bir mərhələdə tikinti işlərinin yerinə yetirilməsi zamanı yol verilmiş pozuntu və çatışmazlıqlar aradan qaldırıldıqdan sonra sifarişçi Dövlət Müfəttişliyinə bildiriş göndərir;

3.5.8. bildirişin daxil olduğu tarixdən 7 təqvim günündən gec olmayaraq, tikinti müfəttişi tərəfindən yerinə yetirilmiş işlərin tikinti norma və qaydalarının tələblərinə və layihəyə uyğunluğu yoxlanılaraq nəzarət jurnalında qeydiyyat aparılır, növbəti mərhələ üzrə tikinti

işlərinin yerinə yetirilməsinin mümkünlüyü barədə öz rəhbərliyinə rəy təqdim edir və buna əsasən, Dövlət Müfəttişliyi tərəfindən müvafiq icazə verilir;

3.5.9. tikinti-quraşdırma işləri üzrə nəzarət prosesi obyekt istismara qəbul edilənə qədər davam etdirilir;

3.5.10. obyektdə tikinti işlərinin yerinə yetirilməsi zamanı tikinti müfəttişi tikinti norma və qaydalarının tələblərinin pozulması hallarını aşkar etdikdə, həmin pozuntular haqqında məlumatı Tikinti obyektinə texniki baxış blankında (bundan sonra — baxış blankı) (2 nömrəli əlavə) qeyd edir, onu imzalayaraq Dövlət Müfəttişliyinə təhvil verir, sifarişçi və podratçı təşkilata tikintidə aşkarlanmış pozuntuların işçi qaydada dərhal aradan qaldırılması üçün nəzarət jurnalında müvafiq qeyd aparır və işçi qaydada aradan qaldırılmadığı və ya dərhal aradan götürülməsi mümkün olmadığı hallarda, icrası məcburi olan «Tapşırıq» verilməsi barədə Dövlət Müfəttişliyi qarşısında məsələ qaldırır;

3.5.11. tikinti obyektində tikinti norma və qaydalarının, normativ hüquqi sənədlərin tələblərinin pozulması halları və dayanıqlığa ciddi təsir edə bilən pozuntular aşkarlandıqda, tikinti müfəttişinin yazılı məlumatı əsasında Dövlət Müfəttişliyi müvafiq yoxlamanın aparılması üçün Agentliyə müraciət edir. Aparılmış yoxlamanın nəticələrinə əsasən Agentlik tərəfindən mövcud qanunvericiliyə uyğun olaraq həmin obyektdə tikinti işləri dayandırılır;

3.5.12. tikinti işlərinin dayandırılmasını təmin etmək məqsədi ilə pozuntular aşkar edilmiş obyektlərin yerləşdiyi ərazi üzrə su və elektrik enerji təchizatı ilə məşğul olan qurumlar qarşısında həmin əraziyə müvafiq təchizatın dərhal dayandırılması barədə məsələ qaldırılır;

**3.6. obyektin istismara qəbul edilməsi mərhələsində:**

3.6.1. tikintisi başa çatmış obyektlər mövcud qanunvericiliyə uyğun olaraq, Agentliyin nümayəndələrinin iştirakı ilə yaradılmış sifarişçi və ya dövlət qəbul komissiyaları tərəfindən istismara qəbul edilir. Obyekt istismara bütövlüklə və yaxud hissə-hissə (tikintinin növbələri kimi) qəbul edilə bilər;

*Yaşayış binaları, o cümlədən mənzillər yalnız elektrik, qaz və su xətlərinə tam həcmdə qoşulduqdan və sayğaclarla təchiz edildikdən sonra istismara qəbul üçün Dövlət qəbul komissiyasına təqdim edilə bilərlər;*

3.6.2. yalnız tikintinin başlanmasına və aparılmasına icazə sənədləri olan, layihə-smeta sənədləri dövlət ekspertizasından keçmiş və təsdiq edilmiş, tikintisi zamanı bütün norma, standart və qaydalara riayət edilməsinə dair Agentlik tərəfindən müsbət rəy verildikdən sonra qəbul komissiyası işə başlaya bilər;

3.6.3. bu obyektlər müvafiq qanunvericiliyə uyğun olaraq yaradılmış qəbul komissiyası tərəfindən istismara qəbul ediləndən sonra istismar oluna bilər və onlara kommunal xidmətlər (tikinti obyektlərinin texniki və yanğın təhlükəsizliyini təmin edən kommunikasiya xətləri istisna olmaqla) göstərilə bilər;

3.6.4. qəbul komissiyasının tərkibinə sifarişçinin, podratçının, subpodratçının, layihəçinin, istismarçının, Fövqəladə Hallar Nazirliyi Dövlət Yanğın Nəzarəti Xidmətinin, Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi Baş Dövlət Tikinti Müfəttişliyinin və tələb olunan hallarda Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-

Mədən Nəzarəti Dövlət Agentliyinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Səhiyyə Nazirliyinin Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzdində Dövlət Əmək Müfəttişliyinin, *Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin*, yerli icra hakimiyyəti (şəhərin tərkibində olan rayonlar üzrə həm şəhər, həm də rayon icra hakimiyyəti) və ya bələdiyyə orqanının, kommunal xidmətləri göstərən təşkilatların (qaz, su, elektrik və kanalizasiya) və tələb olunan hallarda digər müvafiq təşkilatların nümayəndələri daxil edilməlidir;

3.6.5. istismara qəbul edilmək üçün təqdim edilən obyekt və yaxud onun tikinti növbəsi təsdiq olunmuş layihə və müqavilə sənədlərinə və qüvvədə olan tikinti norma və standartlarına uyğun və tam hazır vəziyyətdə olmalıdır. Bu obyektdə və yaxud onun tikinti növbələrində radiasiya təhlükəsizliyi, sanitar-gigiyena və təhlükəsizlik texnikası tələblərinə uyğun şərait təmin edilməlidir;

3.6.6. qəbul komissiyası işin yekunu üzrə obyektin istismara qəbul edilməsi və ya edilməməsi haqqında qərar qəbul edir və bu qərar akt formasında rəsmiləşdirilir;

## *4. Məsuliyyət*

Bu Qaydaların pozulmasına yol verən hüquqi və fiziki şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.

---

*«Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi tərəfindən tikinti sahəsində dövlət nəzarətinin mərhələlərlə həyata keçirilməsi Qaydaları»na*
***1 nömrəli əlavə***

# Tikintidə dövlət nəzarəti jurnalı

---

*«Təsdiq edirəm»*
*Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Baş Dövlət Tikinti Müfəttişliyinin rəisi*

________________________________

*«___» ________________ 200___ il*

# Tikinti obyekti üzrə əsas məlumatlar

Tikinti obyektinin adı və təyinatı ________________________________________

*(müəssisə, bina va qurğular kompleksi)*

---

Tikinti obyektinin ünvanı ________________________________________________

Tikinti obyektinin sifarişçisi və onun qeydiyyat ünvanı ____________________

Tikinti obyektinin layihəçisi, onun qeydiyyat ünvanı və lisenziyanın nömrəsi və tarixi ____________________________________________________________________

---

Tikinti obyektinin podratçısı, onun qeydiyyat ünvanı və lisenziyanın nömrəsi və tarixi ____________________________________________________________________

---

Tikinti obyektində layihəçi tərəfindən müəllif nəzarətini həyata keçirən məsul şəxslər ____________________________________________________________________

---

*(vəzifəsi, adı və soyadı)*

Tikinti obyektində sifarişçi tərəfindən texniki nəzarəti həyata keçirən məsul şəxslər ____________________________________________________________________

---

*(vəzifəsi, adı və soyadı)*

Tikinti obyektində podratçı tərəfindən daxili əməliyyat nəzarətini həyata keçirən məsul şəxslər ______________________________________________________

---

*(vəzifəsi, adı və soyadı)*

Tikinti obyektində istifadə olunan inşaat materiallarının keyfiyyətinə nəzarəti həyata keçirən təşkilat _____________________________________________

---

*(təşkilatın qeydiyyat ünvanı, lisenziyası və bu təşkilatın məsul şəxsinin vəzifəsi, adı və soyadı)*

Tikinti obyektində Dövlət Nəzarətini həyata keçirən Baş Dövlət Tikinti Müfəttişliyinin əməkdaşı _____________________________________________

---

*(vəzifəsi, adı və soyadı)*

Jurnal başlanmışdır _________________________________

**Qeydlər:**

1. Tikintidə Dövlət Nəzarəti Jurnalı tikinti obyekti üzrə sifarişçi tarəfindən bütün tələb olunan sənədləşmələr yerinə yetirilərək, tikinti işlərinin başlanmasına icazə alındıqdan sonra Baş Dövlət Tikinti Müfəttişliyində tərtib olunaraq sifarişçiyə təhvil verilir.

2. Tikintidə Dövlət Nəzarəti Jurnalı olmadan tikinti obyektində tikinti-quraşdırma işlərinin yerinə yetirilməsi qadağandır və bu qadağaya əməl olunmaması sifarişçinin qanunvericilikdə nəzərdə tutulmuş qaydada məsuliyyətə cəlb edilməsi üçün əsasdır.

3. Tikinti obyektinin sifarişçisinin nəzərinə çatdırılır ki, Tikintidə Dövlət Nəzarəti Jurnalı daimi tikinti obyektində sifarişçinin məsul nümayəndəsində səliqəli vəziyyətdə saxlanılmalıdır və Baş Dövlət Tikinti Müfəttişliyinin məsul nümayəndəsinin tələbi ilə müvafiq qeydlər aparılması üçün ona təqdim edilməlidir. Jurnalın itirilməsi və ya məhv edilməsi məsul şəxsin qanunvericiliklə müəyyən olunmuş qaydada məsuliyyətə cəlb olunması üçün əsasdır.

Sifarişçinin möhürü və imzası _____________________________________________

*(vəzifəsi, adı və soyadı)*

---

*«Təsdiq edirəm»*
*Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Baş Dövlət Tikinti Müfəttişliyinin rəisi*
______________________________
*«___» ________________ 200___ il*

**Tikinti obyektində tikinti-quraşdırma işləri aşağıdakı mərhələlərlə aparılmalıdır:**

- növbəti mərhələnin başlanmasına yalnız əvvəlki mərhələdə yerinə yetirilmiş işlərin tikinti norma və qaydalarına,
- layihəyə uyğunluğunun təsdiq olunmasından sonra icazə verilə bilər;
- betonlanma işləri və ya yığma dəmir-beton konstruksiyaların quraşdırılması tam bitmiş iki mərtəbə aralıqda saxlamaq şərti ilə aşağı mərtəbələrdə hörgü, daxili suvaq və daxili kommunikasiyalar üzrə işlərin paralel surətdə yerinə yetirilməsinə icazə verilə bilər.

**1-ci mərhələdə:**

- ərazinin hasara alınması, işıqlandırılması və tikinti haqqında məlumat lövhəsinin quraşdırılması;
- ərazinin planlaşdırılması və tikinti üçün hazırlanması;
- ±0.000 səviyyəsindən yuxarı torpaq işlərinin yerinə yetirilməsi;

**2-ci mərhələdə:**

- ±0.000 səviyyəsindən aşağı aparılan işləri;

- bünövrə çalasının qazılması, bərkitmə işlərinin aparılması və hazırlıq qatının yerinə yetirilməsi;
- bünövrə hissəsində tikinti-quraşdırma işlərinin yerinə yetirilməsi;

**3-cü və növbəti mərhələlərdə:**

- zirzəmi mərtəbəsindən (mərtəbələrindən) başlayaraq (əgər zirzəmi mərtəbəsi və mərtəbələri nəzərdə tutulmayıbsa, 1-ci mərtəbədən), hər bir mərtəbə üçün ayrılıqda layihədə nəzərdə tutulmuş (o cümlədən texniki və mansard mərtəbələr üzrə) qaydada tikinti-quraşdırma işlərinin yerinə yetirilməsi;

**növbəti mərhələdə**

- çardaq və dam örtüyü işlərinin yerinə yetirilməsi;

**növbəti mərhələdə**

- hörgü və suvaq işlərinin yerinə yetirilməsi;

**növbəti mərhələdə**

- daxili kommunikasiya işlərinin yerinə yetirilməsi;

**növbəti mərhələdə**

- tamamlama işlərinin yerinə yetirilməsi;

**növbəti mərhələdə**

- xarici kommunikasiya işlərinin yerinə yetirilməsi;

**növbəti mərhələdə**

- abadlıq işlərinin yerinə yetirilməsi;

**son mərhələdə**

- tikinti obyektinin sifarişçinin Qəbul Komissiyası tərəfindən istismara qəbul edilməsi;
- tikinti obyektinin Dövlət Qəbul Komissiyasına təhvil verilməsi.

---

*1-ci mərhələdə nəzərdə tutulmuş işlərin yerinə yetirilməsinə icazə verilir.*

*Baş Dövlət Tikinti Müfəttişliyinin rəisi*

______________________________

*«___» ________________ 200___ il*

*Qeydiyyat vərəqi*

| Sıra №-si | Bu mərhələdə yerinə yetirilmiş tikinti işlərinin tikinti norma və qaydalarına, layihəyə uyğunluğuna, istifadə olunan tikinti material, məmulat və konstruksiyalarının norma və standartlara uyğunluğuna dair aşkarlanmış pozuntu və çatışmazlıqlar | Aşkar edilmiş pozuntu və nöqsanların aradan qaldırılması barədə göstərişlər və onların yerinə yetirilməsi müddəti | Qeydiyyatı aparan müfəttiş (adı, soyadı, imzası və qeydiyyatın tarixi) |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |

| Qeydiyyatla tanış olan: a) sifarişçinin nümayəndəsi; b) podratçının nümayəndəsi (adları, soyadları, vəzifələri, imzaları və tarix) | Göstərişlərin yerinə yetirilməsini təsdiq edən: a) sifarişçinin nümayəndəsi; b) iş icraçısı (adları, soyadları, vəzifələri, imzaları və tarix) | Bu mərhələdə yerinə yetirilmiş tikinti işlərinə nəzarət, daxili əməliyyat, texniki və müəllif nəzarətlərinin aparılması və təhlükəsizlik tədbirlərinin yerinə yetirilməsi, üstüörtülü işlərin aktlarının və sınağın nəticələrinin qeyd olunması | Bu mərhələdə yerinə yetirilmiş tikinti işlərinin tikinti norma və qaydalarına, layihəyə uyğunluğu barədə nəzarəti həyata keçirmiş müfəttişin qeydləri (imza və tarix) |
|---|---|---|---|
| 5 | 6 | 7 | 8 |

| | | | |
|---|---|---|---|
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |

---

*2-ci mərhələdə nəzərdə tutulmuş işlərin yerinə yetirilməsinə icazə verilir.*

*Baş Dövlət Tikinti Müfəttişliyinin rəisi*

*________________________________*

*«___» ________________ 200___ il*

*Qeydiyyat vərəqi*

| **Sıra №-si** | **Bu mərhələdə yerinə yetirilmiş tikinti işlərinin tikinti norma və qaydalarına, layihəyə uyğunluğuna, istifadə olunan tikinti material, məmulat və konstruksiyalarının norma və standartlara uyğunluğuna dair aşkarlanmış pozuntu və çatışmazlıqlar** | **Aşkar edilmiş pozuntu və nöqsanların aradan qaldırılması barədə göstərişlər və onların yerinə yetirilməsi müddəti** | **Qeydiyyatı aparan müfəttiş (adı, soyadı, imzası və qeydiyyatın tarixi)** |
|---|---|---|---|
| **1** | **2** | **3** | **4** |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |

| | | | |
|---|---|---|---|
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |

| **Qeydiyyatla tanış olan: a) sifarişçinin nümayəndəsi; b) podratçının nümayəndəsi (adları, soyadları, vəzifələri, imzaları və tarix)** | **Göstərişlərin yerinə yetirilməsini təsdiq edən: a) sifarişçinin nümayəndəsi; b) iş icraçısı (adları, soyadları, vəzifələri, imzaları və tarix)** | **Bu mərhələdə yerinə yetirilmiş tikinti işlərinə nəzarət, daxili əməliyyat, texniki və müəllif nəzarətlərinin aparılması və təhlükəsizlik tədbirlərinin yerinə yetirilməsi, üstüörtülü işlərin aktlarının və sınağın nəticələrinin qeyd olunması** | **Bu mərhələdə yerinə yetirilmiş tikinti işlərinin tikinti norma və qaydalarına, layihəyə uyğunluğu barədə nəzarəti həyata keçirmiş müfəttişin qeydləri (imza və tarix)** |
|---|---|---|---|
| **5** | **6** | **7** | **8** |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |

| | | | |
|---|---|---|---|
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |

---

*3-cü mərhələdə nəzərdə tutulmuş işlərin yerinə yetirilməsinə icazə verilir.*

*Baş Dövlət Tikinti Müfəttişliyinin rəisi*

______________________________

*«___» ________________ 200___ il*

*Qeydiyyat vərəqə*

| **Sıra №-si** | **Bu mərhələdə yerinə yetirilmiş tikinti işlərinin tikinti norma və qaydalarına, layihəyə uyğunluğuna, istifadə olunan tikinti material, məmulat və konstruksiyalarının norma və standartlara uyğunluğuna dair aşkarlanmış pozuntu və çatışmazlıqlar** | **Aşkar edilmiş pozuntu və nöqsanların aradan qaldırılması barədə göstərişlər və onların yerinə yetirilməsi müddəti** | **Qeydiyyatı aparan müfəttiş (adı, soyadı, imzası və qeydiyyatın tarixi)** |
|---|---|---|---|
| **1** | **2** | **3** | **4** |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |

| Qeydiyyatla tanış olan: a) sifarişçinin nümayəndəsi; b) podratçının nümayəndəsi (adları, soyadları, vəzifələri, imzaları və tarix) | Göstərişlərin yerinə yetirilməsini təsdiq edən: a) sifarişçinin nümayəndəsi; b) iş icraçısı (adları, soyadları, vəzifələri, imzaları və tarix) | Bu mərhələdə yerinə yetirilmiş tikinti işlərinə nəzarət, daxili əməliyyat, texniki və müəllif nəzarətlərinin aparılması və təhlükəsizlik tədbirlərinin yerinə yetirilməsi, üstüörtülü işlərin aktlarının və sınağın nəticələrinin qeyd olunması | Bu mərhələdə yerinə yetirilmiş tikinti işlərinin tikinti norma və qaydalarına, layihəyə uyğunluğu barədə nəzarəti həyata keçirmiş müfəttişin qeydləri (imza və tarix) |
|---|---|---|---|
| 5 | 6 | 7 | 8 |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |

---

*Növbəti mərhələdə nəzərdə tutulmuş işlərin yerinə yetirilməsinə icazə verilir. Baş Dövlət Tikinti Müfəttişliyinin rəisi*

*______________________________*

*«___» ________________ 200___ il*

*Qeydiyyat vərəqə*

| Sıra №-si | Bu mərhələdə yerinə yetirilmiş tikinti işlərinin tikinti norma və qaydalarına, layihəyə uyğunluğuna, istifadə olunan tikinti material, məmulat və konstruksiyalarının norma və standartlara uyğunluğuna dair aşkarlanmış pozuntu və çatışmazlıqlar | Aşkar edilmiş pozuntu və nöqsanların aradan qaldırılması barədə göstərişlər və onların yerinə yetirilməsi müddəti | Qeydiyyatı aparan müfəttiş (adı, soyadı, imzası və qeydiyyatın tarixi) |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |

| Qeydiyyatla tanış olan: a) sifarişçinin nümayəndəsi; b) podratçının nümayəndəsi (adları, soyadları, vəzifələri, imzaları və tarix) | Göstərişlərin yerinə yetirilməsini təsdiq edən: a) sifarişçinin nümayəndəsi; b) iş icraçısı (adları, soyadları, vəzifələri, imzaları və tarix) | Bu mərhələdə yerinə yetirilmiş tikinti işlərinə nəzarət, daxili əməliyyat, texniki və müəllif nəzarətlərinin aparılması və təhlükəsizlik tədbirlərinin yerinə yetirilməsi, üstüörtülü işlərin aktlarının və sınağın nəticələrinin qeyd olunması | Bu mərhələdə yerinə yetirilmiş tikinti işlərinin tikinti norma və qaydalarına, layihəyə uyğunluğu barədə nəzarəti həyata keçirmiş müfəttişin qeydləri (imza və tarix) |
|---|---|---|---|
| 5 | 6 | 7 | 8 |
| | | | |

| | | | |
|---|---|---|---|
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |

**Qeyd.**

Bu jurnalın axırıncı 3 (üç) səhifəsi obyektin mərtəbəliyindən asılı olaraq təkrarlanır və hər bir obyekt üçün müxtəlif sayda səhifələrdən ibarət olmaqla tərtib olunur.

---

*«Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi tərəfindən tikinti sahəsində dövlət nəzarətinin mərhələlərlə həyata keçirilməsi Qaydaları»na*
***2 nömrəli əlavə***

# Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi Baş Dövlət Tikinti Müfəttişliyi

(Bakı şəhəri, Füzuli 69)

«____» _________________ 200___ il                                        № _________

# Tikinti obyektinə texniki baxış blankı

| | | |
|---|---|---|
| 1. | Obyekt, onun ünvanı, təyinatı və sifarişçisi | |
| 2. | Torpaq sahəsinin ayrılması və ya tikinti haqqında sərəncam (qərar) | |

| | | |
|---|---|---|
| 3. | İnşaat pasportu | |
| 4. | Layihə təşkilatının adı və lisenziyası | |
| 5. | İşçi layihəsinin yerli icra hakimiyyəti orqanları ilə razılaşdırılması | |
| 6. | Layihənin Dövlət ekspertizasından keçirilməsi | |
| 7. | Obyektin layihə üzrə giriş və mərtəbələrinin sayı | |
| 8. | Obyektin qeydiyyata alınması, tikinti işlərinin başlanmasına «İcazə» | |
| 9. | Podrat təşkilatının adı və lisenziyası | |
| 10. | Tikinti-quraşdırma işlərinin sənədləşdirilməsi (üstüörtülü işlərin qəbulu və sınaq aktları) | |
| 11. | İnşaat material və konstruksiyalarının sertifikatları | |
| 12. | Texniki nəzarətin aparılması | |
| 13. | Müəllif nəzarətinin aparılması | |
| 14. | Daxili əməliyyat nəzarətinin aparılması | |
| 15. | Tikintinin vəziyyəti | |
| 16. | İstismara qəbul aktı | |
| 17. | Tikintidə aşkarlanmış pozuntular | |